**«TƏSDİQ EDİLMİŞDİR»**

Azərbaycan Respublikasının Prezidenti

yanında Qiymətli Kağızlar üzrə Dövlət

Komitəsi Əmr 161

«21» sentyabr 2000-cı il

Sədr _______________ H. Babayev

(11 aprel 2002-ci il tarixli 66 №-li, 25 may 2004-cü il tarixli 074 №-li Əmrlərin redaksiyasında)

# Azərbaycan Respublikasında çeklərin dövriyyəsi haqqında Ə S A S N A M Ə

## I. Ümumi müddəalar

1.1. Bu Əsasnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Çeklər haqqında vahid qanun barədə Konvensiyaya" və Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 26 iyul tarixli 161 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"-yə müvafiq olaraq hazırlanmışdır.

1.2. Bu Əsasnamənin məqsədləri üçün aşağıdakı anlayışlardan istifadə olunur:

Aval - çeki imzalamış şəxsin və ya çek üzrə öhdəlik daşıyan digər şəxslərin öhdəliklərini yerinə yetirməsinə görə təminat verən şəxsin zəmanətidir.

Avalçı - aval verən şəxs.

Allonj – çekin arxa tərəfində qeydlərin yazılması üçün (indosamentlərin, avalın) yer olmadıqda üzərində yazılar yazmaq, aval və indosamentləri rəsmiləşdirmək üçün çekə əlavə edilmiş kağız vərəqidir.

İndossament - çekdən irəli gələn bütün hüquqları sonuncu çek sahibindən növbəti sahibə ötürən çek üzərindəki ötürücü yazıdır.

İndossant - çek üzərində xüsusi yazını (indossamenti) yazan şəxsdir.

İndossat - xüsusi yazı (indossament) əsasında çek ötürülən şəxsdir.

Çek – müəyyən edilmiş formaya malik olan, çekverənin ödəyiciyə, çekdə göstərilən pul məbləğinin çek sahibinə ödəməsi barədə heç nə ilə şərtləndirilməyən yazılı sərəncamından ibarət ödəniş və hesablaşma funksiyasını yerinə yetirən qiymətli kağızdır.

Adlı çek – konkret bir şəxsin adına "əmrə deyil" şərtilə yazılan və digər şəxslərə ötürülməsi (indosamentlə) mümkün olmayan çekdir.

Orderli çek - konkret bir şəxsin adına "əmrilə" şərti altında yazılan və digər şəxslərə ötürülməsinə (indosamentlə) yol verilən çekdir.

Adsız (təqdim edənə) çek – "təqdim edənə" şərti yazılmaqla verilən və digər şəxsə sadəcə olaraq verməklə ötürülən çekdir.

Hesablaşma çeki – cari hesabdan yalnız naqdsız qaydada hesablaşmaların aparılmasını nəzərdə tutan çekdir.

Çek kitabçası – kredit təşkilatı tərəfindən buraxılan çek blanklarından ibarət olan kitabçadır. Çek kitabçasında olan çeklərin sayı kredit təşkilatı tərəfindən müəyyən edilir.

Çeki protestə vermək – çekin ödənilməsindən imtina ilə əlaqədar, notariusun müəyyən hüquqi faktları rəsmi təsdiq edən hüquqi hərəkətidir.

Reqress - çek sahibinin çek verənə, çekin üstünü yazana, o cümlədən, indossantlara, avalçılara qarşı çek məbləğinin ödənilməsi haqqında tələbidir.

1.3. Azərbaycan Respublikasında çeklərin buraxılması hüququna yalnız bank fəaliyyətinə lisenziya almış kredit təşkilatı malikdir.

1.4. Bu Əsasnamə Azərbaycan Respublikasında çeklərin buraxılışını və çek dövriyyəsi ilə bağlı digər məsələləri tənzimləyir.

1.5 Çeklərə hesablaşma çeki, bank çeki, pul çeki və yol çeki aiddir.

1.6 Hesablaşma çeki hesablardan nağdsız qaydada hesablaşmaların ararılmasını nəzərdə tutan çekdir.

1.7 Bank çeki bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

1.8 Pul çeki müştərinin bankda olan hesabından nağd pul vəsaitini almaq üçün yazılı sərəncamdan ibarət olan çekdir.

1.9 Yol seki məntəqədə verilmiş çekdə imza nümünəsi göstərilən çek sahibinə,

çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olub, digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

II. Çekin tərtib edilməsi və rekvizitləri

2.1. Çekin blankında aşağıdakılar əks etdirilməlidir:

a) sənədin adı kimi «çek» sözü;

b) ödəyiciyə konkret pul məbləğinin ödənilməsi barədə sərəncam;

c) ödəyicinin adı, ünvanı və bank rekvizitləri (kodu, müxbir hesabı və VÖİN);

d) ödəniş yeri;

e) çekin tərtib edilmə tarixi və yeri;

f) çek verənin tam adı və imzası;

g) çekin nömrəsi.

2.2. Aşağıdakı hallar istisna edilməklə, bu bölmənin birinci bəndində göstərilən müddəalardan hər hansı birinin olmadığı sənəd çek hesab olunmur.

Çekin ödəniş yeri barədə müvafiq hissəsində ödəniş yeri göstərilməyibsə ödəyicinin adı ilə yanaşı göstərilmiş yer (ödəyicinin ünvanı) ödəniş yeri hesab olunur.

Müvafiq hissəsində tərtib olunma yeri göstərilməmiş çek, çekverənin adının yanında göstərilmiş (çekverənin ünvanı) yerdə tərtib olunmuş hesab olunur.

2.3. Çek əl yazma ilə və ya texniki vasitələrdən istifadə edilməklə doldurula bilər. Çekin faksimil vasitəsilə imzalanmasına yol verilmir. İmzalanma yalnız əl vasitəsi ilə icra olunmalıdır.

2.4. Çek, çekverənin vəsaitləri saxlanıldığı kredit təşkilatında ödənilir və ləğv edilir.

2.5. Çek aksept oluna bilməz. Çekdə aksept barədə yazılan qeyd etibarsız sayılır.

2.6. Çekdə aşağıdakilar yazıla bilər:

a) birbaşa "əmrilə" qeydi yazmaqla və ya onsuz müəyyən bir şəxsin adına (bu halda çek indosamentlə ötürülə bilər);

b) "əmrə deyil" qeydilə müəyyən bir şəxsin adına (bu halda çek indossamentlə ötürülə bilməz və yalnız adi tsessiya qaydasında verilə bilər);

c) təqdim edənə (adsız çek).

2.7. Müəyyən şəxsə "və ya təqdim edənə" qeyd-şərtilə verilən çek təqdim edənə (adsız) hesab edilir.

2.8. Çek məbləğini alan şəxsin adı göstərilmədikdə, həmin çek adsız çek (təqdim edənə) hesab olunur.

2.9. Çeki çekverən öz adına "əmrilə" qeydini etməklə yaza bilər.

2.10. Çek uçuncü şəxsin hesabına ödənilmək üçün təqdim edilə bilər.

2.11. Çek çekverənin özünə ödəniş üçün təqdim edilə bilməz (çekverən hüquqi şəxs olduqda özündən şöbəsinə və ya əksinə və bir şöbəsindən başqa şöbəsinə ödəniş üçün təqdim edilən çeklər istisna olmaqla).

2.12. Çekdə faiz şərtlərinin yazılmasına yol verilmir və yazılan hər hansı faiz şərti yazılmamış hesab olunur.

2.13. Üçüncü şəxsin bank olması şərti ilə çek üçüncü şəxsə və yaxud ödəyicinin ünvanında və ya başqa yerdə ödənilmək üçün təqdim edilə bilər.

2.14. Çekdə sözlə və rəqəmlə yazılmış məbləğlər arasında fərq olduqda sözlə yazılan məbləğ əsas götürülür. Çekdə məbləğ sözlə və yaxud rəqəmlə bir neçə dəfə yazılmışdırsa, bunlar arasında fərq olduqda sözlə yazılan kiçik məbləğ əsas götürülür.

2.15. Çekdə öhdəliyi üzərinə götürə bilməyən şəxslərin imzaları, saxta imzalar, uydurulmuş şəxslərin imzası və ya səlahiyyətsiz imzalar varsa, digər şəxslərin imzaları buna görə öz qüvvəsini itirmir.

2.16. Səlahiyyətsiz təmsilcinin (nümayəndənin) çeki imzalaması həmin çek üzrə onun özünün öhdəlik daşıması deməkdir. Həmin şəxs çeki ödədiyi təqdirdə, həqiqi təmsil olunanın hüquqlarını əldə edir. Səlahiyyətini aşmış təmsilçiyə də bu müddəa aid edilir.

2.17. Çekverən çekin ödənilməsinə cavabdehdir. Bu məsuliyyəti üzərindən atmaq üçün hər hansı bir şərtin yazılmasına yol verilmir. Əgər yazılsa belə yazılmamış hesab edilir.

III. İndossament

3.1. Hər bir çek indossament vasitəsilə ötürülə bilər ("əmrə deyil", yaxud eyni mənalı digər şərtli çeklər istisna olmaqla).

İndossament çekverənin xeyrinə, yaxud çek üzrə mükəlləfiyyətli hər hansı başqa şəxsin xeyrinə yazıla bilər. Bu şəxslər (yalnız ödəyici istisna olmaqla) öz növbəsində çeki indossament vasitəsilə yenidən ötürə bilərlər.

3.2. İndossament sadə və şərtsiz olmalıdır. Onu məhdudlaşdıran hər hansı şərt etibarsızdır.

Ödəyici tərəfindən yazılmış və ya natamam indossament etibarsızdır.

Adsız (təqdim edənə) indossament blanklı indossament hesab edilir.

Ödəyicinin bir neçə şöbəsi olduqda və indossament, çekin yazıldığı şöbədən başqa bir şöbənin (indossatın) xeyrinə edildiyi hal istisna edilməklə, ödəyiciyə yazılan indossament ancaq ödəniş qəbzi qüvvəsinə malikdir.

3.3. İndossament çekin arxa tərəfində və ya allonjda yazılmalı və indossant tərəfindən imzalanmalıdır.

3.4. Çek sahibi indossament vasitəsilə çeki ötürüməsilə bərabər çekdən irəli gələn bütün hüquqları da ötürmüş olur. Əgər o, blanklı indossamentidirsə, çek sahibi:

1) blankı öz adına və ya hər hansı başqa bir şəxsin adına doldura bilər;

2) çeki blanklı indossament vasitəsilə ötürə bilər və ya indossamentlə çeki hər hansı başqa şəxsin adına ötürə bilər;

3) blankı doldurmadan və indossament yazmadan çeki başqa bir şəxsə verə bilər (sadəcə verməklə).

3.5. Əks şərt qoyulmamışdırsa, indossant çekin ödənilməsinə cavabdehdir.

İndossant, öz indosamentində "əmrə deyil" şərtini yazmaqla çekin yenidən ötürülməsini qadağan edə bilər; bu halda o, çekin sonradan indossamentlə ötürüldüyü şəxslər qarşısında cəvabdehlik daşımır.

3.6. Çeki olan şəxs, əgər o öz hüquqlarını bir-birinə bağlı ardıcıl indossamentlərlə əsaslandırırsa, hətta axırıncı indossament blanklı indossament olsa belə, qanuni çek sahibi sayılır. Üstündən xətt çəkilmiş indossamentlər bu halda yazılmamış hesab

olunur. Blanklı indossamentdən sonra başqa bir indossament yazılmışdırsa, sonuncunu imzalamış şəxs, çeki blanklı indossamenti ilə əldə etmiş sayılır.

3.7. Əgər çek sahibi hər-hansı bir səbəb üzündən çekə sahiblik hüququnu itirərsə və həmin çekin adsız çek və ya indossamentlə ötrülmüş çek olmasından aslı olmayaraq o, çekə sahiblik hüququnu bu Əsasnamənin 3.6-cı bəndindəki tələblərə üyğun əsaslandırsa da belə, çeki əldə edərkən qanunsuzluğa, kobud səhvə yol veribsə onda o, çeki əvvəlki qanuni sahibinə qaytarmağa borcludur.

3.8. İndossamentdə "məbləğin alınması üçün", "inkassoya", "müvəkkil olaraq" ifadələrindən biri, yaxud sadə tapşırığı nəzərdə tutan hər hansı digər qeyd varsa, çek sahibi çek üzrə bütün hüquqlardan istifadə edə bilər, lakin onu yalnız yenidən tapşirma indossamentilə başqasına ötürə bilər.

Çek üzrə öhdəlik daşıyanlar bu halda çek sahibinə yalnız indossanta qarşı irəli sürə biləcəkləri etirazları edə bilərlər.

Yenidən tapşirma indosamentində olan tapşırığa yenidən tapşıranın ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi nəticəsində xitam verilmir.

3.9. Protest verildikdən və ya bu protestin verilməsi üçün müəyyənləşdirilmiş vaxt bitdikdən sonra yazılmış indossament, yalnız adi tsessiyanın qüvvəsinə malikdir.

Tarixi qoyulmamış indossament, nə qədər ki əksi sübuta yetirilməmişdir, müddət bitənə dək icra edilmiş sayılır.

IV. Aval

4.1. Çek məbləğinin tam və ya müəyyən hissəsinin ödənilməsi aval vasitəsi ilə təmin edilə bilər.

Ödəyici və ya çekdə imzası olan şəxslərin hər hansı biri istisna olmaqla, bu zamanət (aval) üçüncü şəxs tərəfindən verilə bilər.

4.2. Aval çekin arxasında və ya alonjda yazılır.

Aval "aval edirəm" sözrləri ilə və ya eyni mənalı başqa sözlərlə ifadə olunur və aval edən şəxs öz ünvanını və aval verdiyi tarixi göstərməklə çeki imzalayaraq təsdiqləyir.

Avalda onun kimin hesabına verildiyi göstərilməlidir. Belə bir göstəriş olmadıqda aval, çekverən üçün verilmiş sayılır.

4.3. Avalçı (aval verən) zəmanət verdiyi şəxs qədər məsuliyyət daşıyır.

Avalçı çekin məbləğini ödədiyi təqdirdə zəmanət verdiyi şəxsə qarşı və həmin şəxs qarşısında öhdəlik daşıyanlara qarşı çekdən irəli qələn hüquqları əldə edir.

4.4. Avalçının hüquq və vəzifələri Azərbaycan Respublikasının Mülkü Məcəlləsinin 1057-ci maddəsilə və bu Əsasnamə ilə tənzimlənir.

V. Ödəniş

5.1. Çek yalnız təqdim edilməklə ödənilir. Ödənişin alınması üçün digər üsullara yol verilmir.

5.2. Azərbaycan Respublikasının ərazisində tərtib edilib və bu ərazidə ödənilməli olan çek bir ay müddətində ödənişə təqdim olunmalıdır. Azərbaycan Respublikası ərazisində verilmiş çeklər, başqa ölkədə ödənilməli olduqda , verilmə yeri ilə ödəniş yeri eyni qitələrdədirsə, iki ay müddətində, müxtəlif qitələrdədisə, üç ay müddətinə ödənişə təqdim edilməlidir. Azərbaycan Respublikasının ərazisində verilən və Müstəqil Dövlətlər Birliyinin üzvü olan digər dövlətin ərazisində ödənilməli olan çeklər eyni qitədə verilən və ödənilməli olan çeklər sayılır. Yuxarıda göstərilən müddətlərin hesablanması çekdə onun verilmə günü kimi göstərilən gündən başlanır.

5.3. Əgər çekin yazılıb verildiyi yerin təqvimilə ödənilməli olduğu yerin təqvimi bir-birindən fərqlənirsə, onda çekin yazılıb verilmə tarixi ödəniş yerindəki təqvimin ona uyğun günündən hesablanmalıdır.

5.4. Yalnız təqdim olunması üçün bu Əsasnamənin 5.2-ci bəndində göstərilən müvafiq müddətlər bitdikdən sonra çek, çekverən tərəfindən geri tələb oluna bilər (geri götürülə bilər).

Əgər çek geri tələb olunmayıbsa, ödəyici ödəməni hətta təqdim olunma müddəti bitdikdən sonra da həyata keçirə bilər.

5.5. Çek verildikdən sonra çek verənin ölməsi və ya fəaliyyət qabiliyyətini itirməsi və ödəmə qabiliyyətli olmamasının elan edilməsi çekin etibarlığına təsir göstərmir.

5.6. Ödəyici çeki ödədikdə ödənilmiş çekin və ödəniş qəbzinin ona verilməsini çek sahibindən tələb edə bilər.

Çek sahibi çek məbləğinin hissə-hissə ödənişini rədd edə bilməz.

Ödəyici çekin məbləğini hissə-hissə ödədikdə, bu ödəmə haqqında çek üzərində qeyd edilməsini və bu barədə ona qəbzin verilməsini tələb edə bilər.

5.7. İndossament edilmiş çek üzrə ödəməni həyata keçirən ödəyici indossamentlər sırasının ardıcıllığının düzgünlüyünü yoxlamalıdır, lakin indossantların imzasının

yoxlanılması tələb olunmur.

VI. Çek kartları

6.1 Çeklərlə birgə kredit təşkilatı sifarişçiyə çeklərin miqdarından asılı olmayaraq çek kartını verə bilər.

6.2 Çek kartının üz tərəfində aşağıdakılar əks etdirilir:

a) kredit təşkilatının adı və ünvanı;

b) Kartın №-si;

c) çekverənin adı və rekvizitləri;

d) çekverənin imzası;

e) çekverənin hesabının nömrəsi;

6.3.1 Çek kartının arxa tərəfində aşağıdakılar əks etdirilir:

“Aşağıdakı şərtlərə riayət edildikdə, ödənilmək üçün üstümüzə göndərilən çekin ödənişinə zəmanət veririk” yazısı:

a) Çekverənin imzası çek kartında onun imzasının nümunəsilə uyğun olmalıdır.

b) Çekverənin hesabının nömrəsi, çek kartında göstərilən hesab nömrəsilə uyğun olmalıdır.

c) Çekverənin şəxsiyyətinin həqiqiliyi onun pasport məlumatının, çek kartında göstərilən məlumatı ilə tutuşdurulması yolu ilə aparılır.

d) Çek yazılan (verilən) tam məbləğdə, (birdəfəyə və ya hissə-hissə) heç bir komisyon haqqı tutulmadan ödənilməlidir.

6.3.2 Çek kartının arxa tərəfində, həmçinin kredit təşkilatının möhürü və məsul şəxsinin imzası da olmalıdır.

6.4 Çekverən çeki verərkən, onunla birlikdə çek kartını çeki yazdığı şəxsə təqdim edə bilər. Çekdə göstərilən məlumatlar çek kartındakı məlumatlarla tutuşdurulduqdan sonra çek kartı çekverənə qaytarılır.

## VII. Cızıqlanmış çek və hesablaşma çeki

7.1. Çekverən və ya çek sahibi çeki 7.2.-ci bənddə nəzərdə tutulan nəticələr törətməklə cızığlaya bilərlər.

Cızığlama çekin üz tərəfində sol aşağı küncdən sağ yuxarı kunc istiqamətində iki paralel xəttin çəkilməsi ilə yerinə yetirilir. Cızığlama ümumi və xüsusi ola bilər.

Əgər iki xətt arasında heç bir işarə və ya "bank" qeydi və ya ona bərabər tutulan başqa bir qeyd yoxdursa, xətləmə ümumi; iki xətt arasında bankin adı yazılıbsa xüsusidir.

Ümumi xətləmə xüsusiyə çevrilə bilər, lakin xüçusi xətləmə ümumiyə çevrilə bilməz.

Xətlərin və ya bankin adının qaralanmasına yol verilmir. Çekdə cızığlanmaya yalnız bir dəfə yol verilir.

7.2. Ümumi cızığlama olan çek ödəyici tərəfindən yalnız hər hansı bir kredit təşkilatına və ya öz müştərisinə ödənilə bilər.

Xüsusi cızığlama olan çek, ödəyici tərəfindən ancaq göstərilən kredit təşkilatına və ya əgər o, özü ödəyicidirsə, onun müştərisinə ödənilə bilər. Lakin, ödəyici kredit təşkilatı çeki ödənişə qəbul etməyi başqa kredit təşkilatına tapşıra bilər.

Kredit təşkilatı cızığlanmış çeki ancaq öz müştərilərinin birindən və ya digər kredit təşkilatından qəbul edə bilər. O, çekin məbləğini yuxarıda göstərilən şəxslərdən başqa digər şəxslərin xeyrinə inkassoya qəbul edə bilməz.

Yuxarıda göstərilən müddəalara əməl etməyən ödəyici və ya kredit təşkilatı bunun nəticəsi olaraq dəymiş zərərə görə çekin məbləğindən çox olmayan həcmdə maddi məsuliyyət daşıyırlar.

7.3. Çekverən və ya çek sahibi çekin üz tərəfinin eninə "ancaq hesablaşmaq üçün" və ya ona bərabər tutulan qeyd yazmaqla çekin nağd pulla ödənilməsini qadağan edə bilər.

Bu halda ödəyici çek məbləğini yalnız hesabdan hesaba köçürmə yolu ilə ödəyə bilər. Çek məbləği üzrə müvafiq hesablarda yazılış aparılması çekin ödənilməsi sayılır. Çek üzərində qeyd edilmiş "ancaq hesablaşmaq üçün" şərtinin qaralanması və ya pozulması etibarsız hesab olunur.

Yuxarıda göstərilən müddəaları yerinə yetirməyən ödəyici dəymiş zərərə görə çekin məbləğindən çox olmayan həcmdə maddi məsuliyyət daşıyır.

VIII. Ödəmədən imtina hallarinda iddia

8.1. Əgər vaxtında təqdim edilmiş çek ödənilməyibsə və ödəmədən imtina təsdiq edilmişsə, çek sahibi indossantlara, çekverənə və öhdəliyi olan digər şəxslərə qarşı məhkəmə vasitəsilə öz iddia hüququnu aşağıdakı qaydada həyata keçirə bilər:

1) rəsmi protest aktının tərtib edilməsi yolu ilə;

2) çekdə təqdim olunma tarixi göstərilən yerdə ödəyicinin ödəmədən imtina barədə tarixi göstərilməklə yazılı qeydi ilə;

3) Çekin ödəniş üçün ödəyiciyə vaxtında göndərilməsi və onun ödənilməməsi haqqında kredit təşkilatının tarixi göstərilmiş sənədi ilə.

8.2. Protest və ya ona bərabər tutulan akt çekin təqdim olunma müddəti bitənədək verilməlidir.

Əgər çek təqdim olunma müddətinin son günü təqdim edilibsə, protest və ona bərabər tutulan akt növbəti iş günü verilə bilər.

8.3. Çek sahibi protesti və ona bərabər tutulan aktı verdiyi gündən sonrakı dörd gün ərzində, «məsrəfsiz dövriyyə» və ya «protestsiz» şərti olduqda isə təqdim edilmədən sonrakı növbəti gündə öz indossantına və çekverənə protest verməsi barədə bildiriş göndərməlidir. Hər bir indossant bildirişi aldığı gündən sonrakı iki iş günü ərzində ona bildirişi göndərənin adını və ünvanını göstərməklə öz indossantına bildiriş verməlidir. Bu proses çekverənə çatana qədər davam etdirilir. Yuxarıda göstərilən hər bir indossant üçün müddətlər bildirişi aldığı tarixdən hesablanır.

Yuxarıdakı abzasa uyqun olaraq çeki imzalayan şəxsə bildiriş göndərildiyi halda, bu bildiriş həmin müddətdə avalçıya də göndərilməlidir.

Əgər indossantlardan biri öz ünvanını göstərməyibsə və ya aydın olmayan şəkildə göstəribsə, bildiriş ondan əvvəlki indossanta göndərilməlidir.

Bildirişi göndərməli olan şəxs bunu istənilən şəkildə, hətta sadəcə olaraq çekin qaytarılması yolu ilə də edə bilər. O, sübut etməlidir ki, bildirişi müəyyən edilmiş vaxtda göndəribdir. Əgər bildiriş göstərilən vaxtda poçtla göndərilibsə, müddətin pozulmadığı hesab edilir.

Bildirişi yuxarda göstərilmiş vaxtda qondərməyən şəxs öz huquqlarını itirmir; onun diqqətsizliyi üzündən dəymiş və ya dəyə biləcək zərərə görə o, maddi məsuliyyət daşıyır, lakin ödəniləcək olan zərərin məbləği çekin məbləğindən çox ola bilməz.

8.4. Çekverən, indossant və ya avalçı sənədə "məsrəfsiz dövriyyə", "protestsiz" və ya eyni mənalı şərtlər qeyd edib imzalamaqla çek sahibini protest və ya ona bərabər tutulan aktların verilməsi öhdəliyindən azad edə bilər.

Bu şərt çek sahibini, çeki müəyyən edilmiş vaxtda ödənişə təqdim etməkdən və protest verdiyi halda bildiriş göndərməkdən azad etmir. Müddətlərin pozulmasını sübuta yetirmək vəzifəsi çek sahibilə mübahisədə bu hala istinad edən şəxsin üzərinə duşur.

Əgər şərt çekverən tərəfindən yazılmışsa, həmin şərt çeki imzalayan bütün şəxslərə şamil edilir, şərt indossant və ya avalist tərəfindən yazılmışsa, həmin şərt yalnız onların özünə şamil edilir. Çekverənin şərtinə baxmayaraq çek sahibi ödəmədən imtinaya görə protest və ya ona bərabər tutulan akt verərsə, protestin və ya ona bərabər tutulan aktın məsrəfləri çek sahibinin öz üzərinə düşür. Əgər şərti indossant və ya avalçı yazmışdırsa, protest və ya ona bərabər tutulan akt verildikdə, buna çəkilən məsrəflər həmin şərti yazan şəxs istisna olmaqla, öz imzasını qoyan bütün digər şəxslərdən tələb oluna bilər.

8.5. Çek üzrə öhdəlik daşıyanların hamısı çek sahibi qarşısında solidar öhdəlik daşıyırlar.

Çek sahibi bu şəxslərin hər birinə ayrılıqda və hamısına birlikdə, onların daşıdıqları öhdəliklərə görə ardıçıllığı nəzərə almadan, həmin şəxslərə qarşı onların öhdəlikləri üzrə iddia qaldıra bilər. Belə bir hüquqa çeki imzalayan hər bir şəxs yalnız onu ödədikdən sonra malik olur.

Öhdəlik götürmüş şəxslərdən birinə qarşı iddia qaldırılması, digər cavabdehlərə, hətta iddia qaldırılmış ilkin cavabdehdən sonra öhdəlik götürmüş şəxslərə də qarşı iddia qaldırılmasını istisna etmir.

8.6. Çek sahibi reqreslə (iddia ilə) müraciət etdiyi hər bir şəxsdən aşağıdakıları tələb edə bilər:

1) ödənilməmiş çekin məbləğini;

2) təqdim edildiyi gündən ödənişin gecikdirildiyi hər qün üçün ödənilməyən çek məbləğinin 0,3 faizi miqdarında penyanı;

3) protest və ya ona bərabər tutulan aktlar üzrə məsrəfləri, bildiriş göndərilməsi üzrə məsrəfləri, habelə digər məsrəfləri.

8.7. Çeki ödəyən onun özü qarşısında məsuliyyət daşıyan şəxslərdən aşağıdakıları tələb edə bilər:

1) ödədiyi bütün məbləği;

2) ödəməni yerinə yetirdiyi gündən başlayaraq hər qün üçün çek məbləğinin 0,3 faizi hesabı ilə penya;

3) çəkilən bütün digər xərcləri.

8.8 Borcluya qarşı iddia verilmiş və ya verilə biləcək hallarda borclu tərəfindən, iddia predmeti olan məbləğ ödənildikdə, çekin protest və ödəmə qəbzi ilə birlikdə ona təqdim olunmasını tələb edə bilər.

Çeki ödəmiş hər bir indossant, özünün və özündən sonrakı indossantların indossamentlərini xətt çəkməklə poza bilər.

8.9. Çekin ödənişə təqdim olunmasına və ya ödəmədən imtinaya görə protestin və ya ona bərabər tutulan aktların müəyyən edilmiş müddətlərdə yerinə yetirilməsinə qarşısıalınmaz maneələr olduqda həmin müddətlər uzadılır.

Çeksahibi qarşısıalınmaz maneələr haqqında dərhal öz indossantına məlumat verməli və çekdə və ya əlavə vərəqdə (alonjda) bu məlumatı göndərdiyi tarixi yazmalı və imza etməlidir, digər hallarda isə 8.3-cü maddədəki qaydalar tətbiq edilir.

Qarşısıalınmaz maneənin təsiri bitdikdən sonra çek sahibi dərhal çeki ödəmə üçün təqdim etməlidir və əgər lazım gəlsə, protest və ya ona bərabər tutulan aktı həyata keçirə bilər.

Əgər çek sahibi təqdimetmə müddəti keçdikdən sonra belə öz indossantına qarşısıalınmaz qüvvə haqqında məlumat verdiyi gündən sonra qarşısıalınmaz qüvvənin təsiri on beş qündən artıq davam edərsə, çek ödənişə təqdim edilmədən və protest və ya ona bərabər tutulan akt yerinə yetirilmədən reqress (iddia qaldırılma) həyata keçirilə bilər.

Şəxsən çek sahibinin özünə və ya onun çekin təqdim edilməsini və ya protestə bərabər tutulan aktın yerinə yetirilməsini həvalə etdiyi səlahiyyətli şəxsə aid olan hallar qarşısıalınmaz qüvvə hesab olunmur.

## IX. Çekin nüsxələri

9.1. Adsız (təqdim edənə) çek istisna edilməklə, Azərbaycan Respublikasında yazılan və digər bir ölkədə ödənilən çeklər bir neçə eyni nüsxədə yazıla bilər. Çek bir neçə nüsxədə buraxıldıqda həmin nüsxələrin mətnində ardıcıl nömrələr qoyulmalıdır; əks halda bunların hər biri ayrıca çek hesab olunur.

9.2 Nüsxələrdən birinin ödənişi, hətta müvafiq şərt qoyulmasa belə, digər nüsxələr üzrə ödənişin icrasından azad edir. Nüsxələrdən birinin ödənilməsi çek üzrə öhdəliyin yerinə yetirilməsini sübut edir.

Nusxələri muxtəlif şəxslərə vermiş indossant, habelə sonrakı indossantlar imza etdikləri və qaytarılmayan butun nüsxələr üzrə öhdəlik daşıyırlar.

X. Dəyişikliklər

10.1 Çekin mətnində dəyişiklik edildiyi halda, bu dəyişiklikdən sonra imza atmış şəxslər dəyişdirilmiş mətnin məzmununa müvafiq olaraq, dəyişiklikdən əvvəl imza atmış şəxslər isə əvvəlki mətnin məzmununa müvafiq olaraq cavabdehdirlər.

XI. Çeklərin dövlət reyestrinə daxil edilməsi

11.1. Çek blankı bu Əsasnaməyə 1 №-li əlavədə göstərilmiş vahid nümunə üzrə QKDK-dan bütün növ qiymətli kağızlar blanklarının hazırlanması fəaliyyətinə xususi razılıq (lisenziya) almış təşkilatlar tərəfindən çap olunur. Çekin blankının ən azı 3 qoruyucu xüsusiyyəti olmalıdır.

11.2. Kredit təşkilatları çeklərin dövlət reyestrinə daxil edilməsi üçün QKDK-ya aşağıdaki sənədləri təqdim etməlidir:

11.2.1 Sifariş ərizəsi. Ərizədə aşağıdaki məlumatlar əks etdirilməlidir:

kredit təşkilatının adı, bank• rekvizitləri və hüquqi ünvanı;

kredit təşkilatının müştərilərinin• pul vəsaitlərinin cəmi məbləği (əmanətləri, depozitləri və digər hesablardakı pul vəsaitləri);

sifariş verilən çek kitabçalarının sayı və çek• kitabçasındaki çek blanklarının sayı;

11.2.2 çek blankının nümunəsi (2 nüsxə);

11.2.3 bank fəaliyyətilə məşqul olmaq üçün lisenziyaının surəti;

11.2.4 təsis sənədlərinin (qeydiyyat şəhadətnaməsi, nizamnaməsi), surətləri;

11.2.5 çeklərin dövlət reyestrinə daxil edilməsi üçün müəyyən edilmiş rüsumun ödənilməsini təsdiq edən sənəd.

11.3. İl ərzində çeklərin buraxılması üçün təkrar müraciət edilərsə, yalnız 11.2.1 və 11.2.5 yarımbəndlərində göstərilən sənədlər təqdim olunmalıdır.

11.4. Təqdim olunmuş sənədlərə 10 iş günü müddətində baxılır və çatışmamazlıqlar və ya imtina üçün əsas olmadıqda, çekin nümunəsinə QKDK-nın müvafiq ştampı vurulur və ərizəçiyə verilir.

11.5. Ərizəçi çekin nümunəsi əsasında sifariş etdiyi çekləri çap etdirir. Çap olunmuş çeklər QKDK-da çekin nümunəsi ilə tutuşdurulur və uyğunsuzluq olmadıqda muvafiq kitabda qeyd aparılmaqla dövlət reyestrinə daxil edilir.

11.6. Yalnız dövlət reyestrinə daxil edildikdən sonra çek kitabçaları təyinatı üzrə istifadə oluna bilər.

11.7. Ərizəçi təqdim etdiyi sənədlərdə olan məlumatın tamliği və düzqünlüyü üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun məsuliyyət daşıyır.

11.9 Çeklərin dövlət reyestrinə daxil edilməsindən aşağıdaki hallarda imtina edilir:

- ərizəçinin təqdim etdiyi sənədlərdə qeyri-dürüst və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

- təqdim olunmuş sənədlər tam olmadıqda və ya onlarda olan müddəalar müvafiq qanunvericiliyin tələblərinə uyğun olmadıqda;

- qanunvericiliklə nəzərdə tutulan diqər hallarda.

XII. Hesabat

12.1 Kredit təşkilatları hər rübün axırında, rübdən sonraki ayın 15-nə qədər çeklərlə görülən əməliyyatlar üzrə QKDK-nın müəyyən etdiyi formada (Əlavə 2) ona hesabat verir.

12.2 Bütün növ qiymətli kağızlar blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış təşkilatlar hər rübün axırında, rübdən sonraki ayın 15-nə qədər çap olunan çeklər üzrə məlumatı QKDK-nın müəyyən etdiyi formada (Əlavə 3) ona hesabat verir.

XIII. Məsuliyyət

Bu Əsasnamənin müddəalarını pozan şəxslər qanunvericiliyə müvafiq surətdə məsuliyyət daşıyırlar.

XIV. Əsasnamənin qüvvəyə minməsi

Bu Əsasnamə imzalandığı qündən qüvvəyə minir.

Ялавя 1

| | |
|---|---|
| Тарих | *ЧЕК Банкын Цнваны:* ______________<br>*ВОЕН 000000, м/щ 0000000000000, код 000000, щ/щ 0000000000000* |
| Илкин галыг | ______________ (юдяйижинин там ады, ______________ (юдяниш йери) |
| Чекин мябляьи | ______________ цнваны вя реквизитляри) ______________ (тяртиб едилмя йери) |
| Сон галыг | |
| Чек аланын ады | ______________ ______________200_____<br>(чек мябляьи сюзля) |
| Чек сащибин имзасы | ______________ ______________ манат<br>(мябляь рягямля) |
| Чекын N-си 00000 | ______________Юдяйясиниз<br>______________<br>Чекын N-си 00000 Щесабын N-си 0000000000000 (чек сащибин там ады)<br>______________<br>Имза |

Ялавя 2

Çeklərin dövrüyyəsi haqqında kredit təşkilatların
HESABATI

Kredit təşkilatın adı________________________________________________________________

| Kredit təşkilatının çap etdirdiyi çeklərin sayı | Verilən çeklərin sayı | Ödənilən çeklərin sayı | Ödənilən çeklərin ümumi məbləği | Protestə verilən çeklərin sayı | Protestə verilən çeklərin məbləği | Zədələnən, itirilən, xarab olan çeklərin sayı |
|---|---|---|---|---|---|---|
| | | | | | | |

İdarə heyətinin Sədri

Baş mühasib M.Y.

Ялавя 3

Bütün növ qiymətli kağızlar blanklarının hazırlanması fəaliyyətinə xüsusi razılıq (lisenziya) almış

______________________________

(təşkilatın adı)

200_-ci il _________rübü üzrə

HESABATI

| Sifarişçinin adı | Sifarişçinin hüquqi ünvan və bank rekvizitləri | Çek kitabçalarının sayı | Çeklərin sayı (ədədlə) |
|---|---|---|---|
| | | | |

Müdür

Baş muhasib

M.Y.